

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 141 (24.028)

29 iyul 2022-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr müəyyənləşdirilib və yarım ilin yekunları müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələrə və yarım ilin yekunlarına həsr olunan kollegiya iclası keçirilib.***

Kollegiya iclasını təhsil naziri Rəhman Məmmədov giriş sözü ilə açaraq bildirib ki, 2022-ci ilin birinci yarısında muxtar respublikada bütün sahələrdə əldə olunan uğurlar təhsildən də yan keçməyib. Belə ki, ötən müddət ərzində Şərur rayonunun Çərçiboğan kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib, maddi-tədris bazası gücləndirilib. Hazırda Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin, Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzinin, Naxçıvan şəhər 8 nömrəli Körpələr evi-uşaq bağçasının, Şərur rayonunun Alışar, Həmzəli, Vərməziyar, Babək rayonunun Sirab, Vayxır, Nehrəm qəsəbə 3 nömrəli, Ordubad rayonunun Pəzməri, Xanağa, Unus, Azadkənd, Kələki kənd tam orta məktəblərinin, Babək və Şahbuz rayonlarında məktəbdənkənar tərbiyə müəssisələrinin binalarında tikinti işləri davam etdirilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən bu günədək 106 təhsil müəssisəsində STEAM kabinəsi yaradılıb, zəruri avadanlıqlarla təmin olunub. Hazırda növbəti 50 məktəbdə yeni kabinələrin və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim Tədris Mərkəzinin yaradılması istiqamətində işlər davam etdirilir. STEAM təhsil metodunun muxtar respublikada uğurlu tətbiqinin nəticəsidir ki, ümumtəhsil məktəblərinin şagirdləri Bakı şəhərində keçirilən "TEKNOFEST-2022" festivalında iştirak edib, iyunun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "STEAM təhsili: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq elmi-praktik konfrans, iyunun 11-də isə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "STEAM Təhsil festivalı" keçirilib.

Diqqətə çatdırılıb ki, cari ildə muxtar respublikanın ümumtəhsil məktəblərinin XI sinfini bitirən 2990 məzun üçün, aprelin 30-da isə ümumtəhsil məktəblərinin IX sinfində təhsil alan 4187 şagird üçün buraxılış imtahanı keçirilib. Cari ilin məzunlarının buraxılış imtahanında göstərdiyi nəticələr əvvəlki illərlə müqayisədə daha da yüksək olub. Belə ki, tədris ilinin yekunlarına uyğun olaraq tam orta təhsil bazası üzrə məktəbi bitirən məzunlardan 19-na "Qızıl", 22-nə "Gümüş" nişan, 64-nə tam orta təhsil bazasından, 55-nə ümumi orta təhsil bazasından olmaqla, ümumilikdə, 119-na Fərqlənmə attestatı verilib.

Bildirilib ki, istedadı ilə fərqlənən şagirdləri aşkara çıxarmaq məqsədilə cari tədris ilində Amerikan beynəlxalq riyaziyyat müsabiqəsi, Məktəblilərin respublika fənn olimpiadası, Lütfi Zadə adına Məntiq Olimpiadası və VII Respublika Fənn Müsabiqəsi, həmçinin şagirdlərin riyaziyyat fənninə motivasiyasını artırmaq məqsədilə ilk dəfə olaraq SASMO beynəlxalq riyaziyyat olimpiadası da keçirilib. Keçirilən olimpiada və müsabiqələrdə, ümumilikdə, muxtar respublika üzrə 2426 şagird iştirak edib, onlardan 239-u qalib olub. "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində 2021-2022-ci tədris ili ərzində IX-XI siniflərdə təhsil alan 37 şagirdin və 24 elmi rəhbərin iştirakı ilə 28 layihə işlənib hazırlanıb. Ölkə üzrə keçirilən "Sabahın alimləri" layihəsində 7 şagird 4 layihə ilə iştirak edib, 3 layihə beynəlxalq qurumların mükafatlarına layiq görülüb. Bununla yanaşı, beynəlxalq səviyyəli müsabiqələrdə 36 şagird I dərəcəli diplom və medala, 1 şagird III dərəcəli diplom və medala, 3 şagird isə müxtəlif konfranslarda sertifikatlara layiq görülüb.

Rəhman Məmmədov bildirib ki, Təhsil Nazirliyi tərəfindən cari ilin aprel ayı "Mütaliə aylığı" elan edilib, keçirilən tədbirlərə, ümumilikdə, 20 mindən çox şagird cəlb olunub.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

2022-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələr mövzusunda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində keçirilən iclası nazir Ramil Hacı açıb. Bildirib ki, nazirlik tərəfindən 2022-ci ilin birinci yarım ili ərzində yeniyetmə və gənclərin intellektual bilik və bacarıqlarının yüksəldilməsi, Vətənə sevgi, dövlətə sədaqət ruhunda tərbiyə olunması, tariximizin öyrənilməsi, təhlili və gələcək nəsillərə çatdırılması, qədim diyarımızın tanıdılmasında rolların artırılması, yaradıcılıq potensiallarının inkişaf etdirilməsi və asudə vaxtın səmərəli təşkili məqsədilə bir sıra tədbirlər keçirilib. Nazirliyin əməkdaşları "Könüllülərlə İş üzrə İdarəçilərin İnkişaf Proqramı", Fransanın Strasburq şəhərində keçirilən "Gənclərin hüquqlara çıxışı" adlı təlimlər və Türkiyə Respublikasında keçirilən mütəxəssis mübadiləsi proqramında iştirak edib, 2 nəfər gəncin könüllü qismində Bakı şəhərində təşkil edilən V Etnoidman Forumunda, 1 nəfər könüllü gəncin Tovuz rayonunda keçirilən "Gənclərin davamlı inkişafı" layihəsi çərçivəsində "Bilikdən bacarığa" adlı təlimdə iştirakları təmin edilib. İlin birinci yarısında Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbovun Naxçıvan gəncləri ilə görüşü təşkil olunub, həmçinin Ağbulaq İstirahət Mərkəzində muxtar respublikanın rayonlarından olan fəal gənclərlə Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin görüşü keçirilib.

Bəhs olunan dövr ərzində futbol üzrə Naxçıvan Region Liqası II dövrə oyunları, "Coca-Cola məktəbli kuboku" turniri, aşağı yaş qrupları arasında



futbol üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib, "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun 55 illik yubileyi ilə bağlı "1 uşaq-1 top" festivalı təşkil edilib. Bununla yanaşı, əlamətdar günlərin qeyd edilməsi məqsədilə futzal, boks, 18 yaşadək fiziki imkanları məhdud uşaqlar arasında stolüstü tennis, yeniyetmələr arasında cüdo, 10 yaşadək şahmatçılar arasında şahmat, atletikanın qaçış, nizəatma və nüvəitələmə idman növləri üzrə Naxçıvan Muxtar Respublika birinciliklləri, həmçinin ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Beynəlxalq şahmat turniri, "Heydər Əliyev kuboku" uğrunda müxtəlif idman növləri üzrə muxtar respublika birinciliklləri təşkil edilib.

Nazir Ramil Hacı vurğulayıb ki, birinci yarım il ərzində idmançılarımızın ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin edilib, idmançılar ölkə səviyyəli yarışlarda 152, beynəlxalq turnirlərdə 26, Avropa çempionatında 30, dünya çempionatlarında 2 medal olmaqla, 210 medal qazanıblar. Qazanılan medallardan 84-ü qızıl, 43-ü gümüş, 83-ü isə bürüncdür.

Sonra məruzə ətrafında çıxışlar olub, qərar layihəsi oxunub və təsdiq edilib.



Naxçıvan Dövlət Universitetində yarım ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib. Müşavirəni rektor Elbrus İsayev açaraq qeyd edib ki, muxtar respublikada böyük inkişaf ili kimi səciyyələnən 2022-ci il universitet həyatı üçün də əlamətdar olub. 18-21 iyun tarixlərdə I Beynəlxalq Tibbi Forumun keçirilməsi universitet tarixində öz əhəmiyyətliliyi ilə yadda qalıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2022-ci il iyunun 10-da "Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibbi Forumun keçirilməsi haqqında" Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə Azərbaycan, ingilis və rus dillərində keçirilən forum ölkə tarixində böyük həcmdə təşkil olunan ilk tibbi forum kimi tarixə düşdü. Bildirilib ki, hesabat dövründə bakalavr səviyyəsi üzrə 1332, magistr təhsil səviyyəsi üzrə isə 184 magistrant bitirib, 7544 tələbə təhsilini davam etdirir.

Vurğulanıb ki, 2022-2023-cü tədris ilində ali təhsil ocağının bakalavr və magistr təhsil səviyyələri üzrə yeni ixtisaslar üzrə qəbul layihəsi verilib və təsdiq olunub.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 25 iyun tarixdə təsdiq etdiyi "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq 2022-ci ilin 6 ayı ərzində 18 qurum və təşkilatın hamiliyində olan 22 ixtisas üzrə təhsil alan tələbələr ilə 49 sayda müxtəlif sahəsində tədbirlər keçirilib.

Pedaqoji və istehsalat təcrübələrindən danışan rektor diqqətə çatdırıb ki, hazırda Tibb fakültəsinin 135 nəfərdən ibarət müəllim, rezident və tələbə heyəti Türkiyə universitetlərində 2 həftəlik təcrübədədir. Cari tədris ilinin birinci yarısında ali təhsil ocağının Energetika mühəndisliyi ixtisasında təhsil alan tələbələri İtaliyada təcrübədə olublar.

Bildirilib ki, cari tədris ilində universitetdə tədrisin əyani təşkili üçün yeni kabinə və laboratoriyalar yaradılıb, orta ümumtəhsil məktəblərində 836 sayda nümunəvi dərs keçilib.

Vurğulanıb ki, universitetdə fəaliyyət göstərən elmi dərəcəlilərin sayı 173 nəfərdir. Ali təhsil ocağında doktorantura və dissertantura səviyyəsində fəlsəfə doktoru proqramı üzrə 31, elmlər doktoru proqramı istiqamətində 21 ixtisas üzrə kadr hazırlığı aparılır. Hazırda universitetdə fəlsəfə doktoru proqramı üzrə 67, elmlər doktoru proqramı üzrə isə 32 nəfər doktorant və dissertant vardır ki, onlardan bir nəfəri Koreya, biri isə Türkiyə vətəndaşıdır. Vurğulanıb ki, 2022-ci ilin birinci yarısında rezidenturada təhsil alan 3 rezident Almaniyaya, 11 nəfər Türkiyəyə rotasiya olunub.

Rektor vurğulayıb ki, 2022-ci ilin ilk altı ayında 2-si Web of Science məlumat bazasına, 1-i Scopus elmi bazasına daxil olan, ümumilikdə, 59 məqalə impakt faktorlu jurnallarda nəşr olunub. Qeyd edilib ki, hesabat dövründə universitet əməkdaşlarının 537 elmi əsəri çap olunub.

Vurğulanıb ki, ötən ildə ali təhsil ocağı beynəlxalq əməkdaşlıqda bir sıra nailiyyətlərə imza atıb. Universitetin davamlı inkişaf edən beynəlxalq əlaqələrinə Ankara, Qazi, Atatürk, Van Yüzüncü İl, Yaponiyanın Fujita Universiteti və Britaniya Şurası ilə beynəlxalq əməkdaşlıq məsələlərinin əlavə olunması, I Beynəlxalq Tibbi Forum çərçivəsində universitetin Azərbaycan Tibb Universiteti, Qaradəniz Texniki Universiteti, İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, İstanbul Yeditəpə Universiteti arasında birgə əməkdaşlığa dair müqavilələrin imzalanması beynəlxalq əlaqələr sahəsində atılan inamlı addımların bariz nümunəsidir. Universitetin "Times Higher Education" beynəlxalq keyfiyyət və reytinq şirkətinin Yaponiyanın Fujita Health Universiteti ilə əməkdaşlığı çərçivəsində "Gələcəyə baxmaq, akademik istedad yaratmaq!" devizi altında 31 may-2 iyun 2022-ci il tarixlərdə Yaponiyanın Naqoya şəhərində keçirilən Asiya universitetləri sammitinə qatılması ilə beynəlxalq əməkdaşlıq məsələlərində mühüm bir mərhələnin əsası qoyulub. 2022-ci ilin birinci yarısında universitet ali məktəblərin beynəlxalq nüfuzunu müəyyənləşdirən, dünyanın ən böyük reytinq təşkilatı olan "Times Higher Education" 2022-ci il üçün "THE Impact Ranking" reytinq siyahısında ötən il olduğundan daha yüksək nəticə göstərib. Azərbaycan ali təhsil məkanında ilk dəfə Naxçıvan Dövlət Universitetində IELTS qeydiyyat və imtahan mərkəzi yaradılıb.

Bu il ilk dəfə olaraq mərkəzləşdirilmiş qaydada təşkil edilən yazılı imtahanlar, ölkədə ilk dəfə olaraq "İnformasiya texnologiyaları Bootcamp" layihəsinin həyata keçirilməsi, yeni qurulmuş mail serverin (*mail.ndu.edu.az*) istifadəyə verilməsi, "TEKNOFEST" Aviasiya, Kosmos və Texnologiya Festivalında 3 layihə ilə iştirak, "STEAM Təhsil festivalı"nda 3 layihə ilə çıxış etməyimiz İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil işinin mövcud standartlara uyğun qurulmasının göstəricisidir.

Media, idman sahəsində ali təhsil ocağının qazandığı uğurları diqqətə çatdıran rektor universitetdə birinci yarım il ərzində 6 idman növü üzrə çempionatın keçirildiyini və bu yarışlarda 600-dən artıq tələbənin iştirak etdiyini diqqətə çatdırıb.

Rektor qeyd edib ki, cari ilin ilk yarısında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən universitetin İncəsənət fakültəsi əməkdaşlarından 5 nəfər, Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncama əsasən 1 nəfər, Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin verdiyi Sərəncam əsasında bir əməkdaş "Əməkdar müəllim" fəxri adı ilə təltif edilib.

Müşavirə məruzə ətrafında çıxışlarla yekunlaşıb.

**Xəbərlər şöbəsi**

*Hərbi təhsil Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin edən xüsusi strateji fəaliyyət sahəsi olmaqla sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təmin edən təlim və tərbiyə prosesidir. Bu istiqamətdə son illərdə aparılan məqsədyönlü islahatlar müasir düşüncə tərzinə malik, bilikli, dövlətçiliyimizə sadiq vətənpərvər gəncliyin yetişməsinə əsaslı zəmin yaradıb. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da yetişməkdə olan nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsi əsas vəzifələrdən hesab edilir. Bu məqsədlə təhsilin bütün pillələrində yetişməkdə olan nəslə vətənpərvərlik ruhu aşılanır, onlarda Vətənə, dövlətə məhəbbət hissi tərbiyə olunur. Əgər bir ölkənin gəncliyi vətənpərvərlik ruhunda tərbiyə edilirsə, təbii ki, orada hərbi təhsilin inkişafı da mükəmməl olacaq. Sevindirici hal ondan ibarətdir ki, bu məqsədlə Azərbaycanda bir neçə hərbi təhsil müəssisəsi fəaliyyət göstərir və həmin təhsil müəssisələrində gələcək üçün savadlı, bacarıqlı hərbi kadrlar hazırlanır.*





**Təhsil millətin gələcəyidir**

# Gənclərin vətənpərvər ruhda böyüməsində hərbi təhsilin xüsusi rolu var

## *Naxçıvanda ordu quruculuğunun əsasını hərbi təhsil təşkil edir*

Müstəqil dövlətin əsas dayaq sütunlarından biri olan güclü və müasir tələblərə cavab verə biləcək ordusunun yaradılmasında hərbi təhsil sisteminin müstəsna əhəmiyyəti vardır. Respublikamızda milli peşəkar kadrların hazırlanması sahəsində xüsusi xidmətlər göstərən, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini orduya həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynayan təhsil ocaqlarından biri də muxtar respublikada fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseydir. Ümummilli liderimiz Heydər Əliyev bu hərbi təhsil müəssisəsinin yaradılması zərurətini belə dəyərləndirmişdir: ***“Tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ... Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi”.***





Dahi şəxsiyyətin adını qürur və şərəflə daşıyan liseyin fəaliyyəti, kursantların gündəlik məşğuliyyəti haqqında yazı hazırlamaq üçün hərbi təhsil ocağına üz tutduq. Liseyin İdeoloji iş və mənəvi psixoloji təminat üzrə şöbə rəisinin ideoloji iş müavini, mayor ***Sərxan Səvxanova*** gəlişimizin məqsədini bildirərək ilk məlumatı da ondan aldıq. O, liseyin yaranma tarixindən, fəaliyyətindən və ordu quruculuğuna verdiyi töhfələrdən geniş söhbət açdı. Hələ sovet dövründə gələcəkdə müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hərbi liseyin əsasının qoyulduğunu vurğuladı: “Hərbi lisey ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1971-ci ildə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında yaradılıb və 24 noyabr 1997-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə məktəbin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılıb. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan tələbatını mükəmməl ödəmək, Naxçıvan Muxtar Respublikasında gənclərin hərbi təhsil alması üçün əlverişli şərait yaratmaq məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı açılıb. Prezident cənab İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv edilərək onun əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb. 2003-cü il aprelin 19-da dahi rəhbər Heydər Əliyev yaratdığı liseyi ziyarət edərək şəxsi heyətlə görüşüb, onlara şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulayıb”.

Sərxan Səvxanov onu da bildirdi ki, fəaliyyət göstərdiyi müddət ərzində liseyi bitirən üç mindən artıq məzun ölkəmizin, həmçinin Rusiyanın, Türkiyənin və başqa xarici dövlətlərin ali hərbi məktəblərində təhsillərini davam etdirir. Bu gün qürur hissi keçiririk ki, məzunlarımız həm birinci, həm ikinci Qarabağ döyüşlərində vətənpərvərlik nümunəsi göstəriblər. Onlarla məzunumuz ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalıb, bir çoxu qazi kimi evlərinə qayıdıb. Onların keçdiyi şərəfli yolu əks etdirən guşə bugünkü kursantlarda Vətənə, dövlətçiliyə məhəbbət hissini daha da artırır. İlboyu keçirdiyimiz tədbirlər içərisində məzunlarımızla görüşlərin təşkili xüsusi yer tutur. Şəhidlik zirvəsinə ucalan, öz evlərinə qazi kimi qayıdan məzunlarımızın yüksək dövlət təltiflərinə layiq görülmələri hamımızı sevindirir.

Həmsöhbətimin verdiyi məlumatları qeydə aldıqdan sonra liseyin tədris prosesinin təşkili ilə ətraflı tanış olmaq üçün Tədris şöbə rəisi ***Tahir Cəlilov***la görüşdük. Ondan təhsil ocağının tədris proqramı, qəbul qaydaları haqqında ətraflı məlumat aldıq. İlk olaraq bildirdi ki, tədris prosesi “Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu”nun təsdiq etdiyi “Xüsusi təyinatlı tam orta təhsil müəssisələrinin təhsil fəaliyyətinin təşkili haqqında Təlimat”ın tələblərinə uyğun olaraq təşkil edilib. Tələb olunan sənədləri toplayaraq liseyin rəhbərliyinə müraciət edən namizədlərin qəbulu iki mərhələdə aparılır. Birinci mərhələdə namizədlər hərbi həkim komissiyasından keçirlər. Komissiyadan müvəffəqiyyətlə keçənlər imtahana buraxılış vəsiqəsi alırlar. İkinci mərhələdə namizədlər Dövlət İmtahan Mərkəzində Azərbaycan dili, riyaziyyat, fizika və kimya fənlərindən test imtahanları verirlər. Hərbi liseydə təhsil əyani formada, iki il müddətində və Azərbaycan dilində olur. Burada kursantlara ümumtəhsil fənləri ilə yanaşı, hərbi hazırlıq və idman dərsləri də tədris edilir. Qəbul olan kursantlar təhsil müddətində hər cür şəraitlə təmin edilir və aylıq müavinət alırlar. Bununla yanaşı, liseyin kursantları cari il ərzində Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən fənn olimpiadalarında 1 qızıl, 1 gümüş, 1 bürünc medala layiq görülüblər. Ümumilikdə, liseyimizdə 325 kursant təhsil alır, bu il onlardan 184 nəfəri məzun oldu.

Müsahibim onu da qeyd etdi ki, hərbi liseyin əsaslı təmir edilən tədris korpusunun ən müasir avadanlıqlarla təchiz olunan fənn kabinələrində, kimya və fizika laboratoriyalarında kursantların bilik və hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılıb. Tədris prosesindən danışarkən ixtisaslı, peşəkar və təcrübəli pedaqoji kollektivin də əməyini xüsusi vurğulamalıyıq. Kursantların təhsilində, bilik və bacarığa yiyələnməsi işində müəllimlərin əməyi əvəzsizdir.



Hərbi liseyə ən yüksək balla qəbul olunan, ikinci kursda təhsil alan kursant ***İsmayıl Qasımlı*** və bu il məzun olan ən yaxşı qiymətlərlə liseyi bitirən, həmçinin “Qızıl nişan” mükafatçısı kursant ***Xəzri Səfərov***la söhbət etdik. Hər iki gənc burada hərbi təhsilə yiyələnmələrindən sevincli və qürurlu olduqlarını bildirdi. “Biz bütün kursantlar adından liseydə yaradılan yüksək şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk. Burada həm hərbçi kimi formalaşır, həm də təhsilimizi uğurla davam etdiririk. Geyimlə, yeməklə, yataq yeri ilə yüksək səviyyədə təmin olunuruq. İstirahətimiz və asudə vaxtlarımız da səmərəli təşkil edilir”.

Bu gün qürur hissi ilə demək olar ki, Heydər Əliyev adına Hərbi Lisey ulu öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi milli ordumuzun savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərlə təmin olunması yolunda səmərəli fəaliyyət göstərir. Hərbi liseyin zabit-müəllim heyəti, kursant və məzunları bu şərəfli adı doğrultmağa çalışır, Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirlər. Liseydə gözəl ənənələr yaradılmasını da xüsusi qeyd etmək lazımdır. Bu ənənələrdən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hər il liseyi bitirən məzunlarla görüşüdür. Görüşlərdə liseyin keçdiyi yola nəzər salınır, tövsiyələr verilir, fərqlənən kursant və müəllimlər mükafatlandırılır. 2021-2022-ci tədris ilinin buraxılış mərasimində Ali Məclisin Sədri deyib: ***“Ölkəmizdə ordu quruculuğu yeni mərhələdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin yolunu uğurla davam etdirərək ordumuzun döyüş qabiliyyətinin artırılması və peşəkar komandan-zabit heyətinin formalaşdırılması sahəsində ardıcıl tədbirlər görür, hərbi təhsil sistemi təkmilləşdirilir. Eyni zamanda hərbi hissələrin maddi-texniki bazası gücləndirilir, xidməti yaşayış kompleksləri istifadəyə verilir. Bu gün müasir hərbi məktəblərdə təhsil aldığınız kimi, gələcəkdə də hər cür imkanlara malik hərbi hissələrdə xidmət edəcəksiniz. Siz qalib ölkənin qalib ordusunun zabiti adını daşıyacaqsınız. Bu, böyük şərəf və məsuliyyət deməkdir. Ona görə də ali hərbi təhsil illərində hərbi bilikləri və texnologiyaları dərindən mənimsəməli, qarşıya qoyulan döyüş tapşırıqlarının icrasına hər an hazır olmalısınız. Sizdən əvvəlki məzunların xidməti fəaliyyəti hər biriniz üçün nümunə olmalı, bu illər ərzində formalaşmış ənənə davam etdirilməlidir”.***

*Ali Məclis Sədrinin bu tapşırıq və tövsiyələri təkcə liseyin kursantlarının deyil, müəllim və zabit heyətinin də qarşısında mühüm vəzifələr qoyur. Başlıca vəzifə isə kursantlara hərbi-vətənpərvərlik tərbiyəsinin bundan sonra da yüksək səviyyədə aşılanması, onların bu ruhda formalaşdırılmasının diqqətdə saxlanılmasıdır. Ərazi bütövlüyümüzün, müstəqilliyimizin, dövlətçiliyimizin qorunmasında bu amillər əsas şərtlərdir. Onların qorunması isə bizim vətəndaşlıq borcumuzdur. İnanırıq ki, hərbi lisey növbəti tədris ili üçün də qalib Vətənini şərəflə müdafiə etmək, şəhidlərimizin müqəddəs arzularını gerçəkləşdirmək məqsədilə hərbi təhsil almaq arzusunda olan gənclərimizin gələcəkdə peşəkar kadr kimi formalaşmasına öz töhfəsini verəcək. Biz isə liseyin kursantı adını daşımaq arzusunda olan belə gənclərimizə “yolunuz açıq olsun”, – deyirik.*

**✍ Aytac CƏFƏRLİ**

# Rabitəçi mühəndislər Türkiyə Respublikasında təlim keçirlər

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Qabaqcıl dünya ölkələrinin təcrübəsindən istifadə etməklə informasiya texnologiyaları sahəsində ixtisaslı kadrların hazırlanması məqsədilə onlar müvafiq onlayn kurslara, seminar və təlimlərə cəlb olunurlar.



Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Ali Məclisin Sədri tərəfindən Rabitə və Yeni Texnologiyalar Nazirliyinə yüksəkixtisaslı kadr hazırlığının diqqətdə saxlanılmasına dair verilmiş tapşırığın icrası, eləcə də həyata keçirilən tədbirlərin davamı olaraq nazirlik ilə “Buta Global Enerji” şirkəti arasında mövcud olan əməkdaşlıq çərçivəsində nazirliyin iki mühəndisi dünyanın aparıcı şirkətlərindən olan Prysmian Groupun Türkiyə Respublikasının Bursa şəhərində yerləşən Mudanya fabrikində təlimə cəlb olunub. Burada Prysmian Groupun dünyanın aparıcı ölkələrində təlim keçmiş yüksəkixtisaslı mühəndisləri tərəfindən onlara mis və fiber-optik kabel növlərinin beynəlxalq standartlara görə çeşidli növlərdə istehsalı, istehsal olunan kabellərin texniki xüsusiyyətləri, o cümlədən siqnal ötürmə sürəti, xətlərin müxtəlif relyeflərə uyğun çəkilməsi barədə ətraflı məlumatlar verilib. Həmçinin Prysmian Groupun fabrikində İtaliya keyfiyyət standartlarında “Draka” markalı kabel məhsullarının istehsalı prosesi ilə tanışlıq zamanı o da bildirilib ki, odadavamlı, yüksəkkeyfiyyətli bu kabellərdən Naxçıvan Muxtar Respublikası üçün xüsusi istehsal olunmaqla yanaşı, inkişaf etmiş dünya ölkələrində də fiber-optik xətt çəkilişində, yeraltı və hava rabitə xətlərinin çəkilməsi zamanı da istifadə edilir. Eyni zamanda mühəndislər fabrikin bütün istehsal sahələri ilə də yaxından tanış olublar.



Qeyd edək ki, təlim 30 iyul 2022-ci il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Yarım ilin yekunları müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasından irəli gələn vəzifələr və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, onun yerli orqanları tərəfindən 2022-ci ilin birinci yarısında görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib.***

İclası giriş sözü ilə komitənin sədri Vaqif Rəsulov açaraq bildirib ki, cari ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş sərəncamların icrası istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. “Statistik Məlumatlar Sistemi”nin normal fəaliyyəti diqqətdə saxlanılmış, yeni proqram təminatlarının yaradılması, mövcud proqram təminatlarında yeniliklərin aparılması təmin edilmişdir. Bununla yanaşı, yerli statistika orqanlarında iş şəraitinin yaxşılaşdırılması istiqamətində Şahbuz Rayon Statistika İdarəsinin yerləşəcəyi inzibati binanın tikintisi davam etdirilmişdir. Muxtar respublikada əmək bazarında muzdlu işçilərin sayı və orta aylıq əməkhaqqı göstəricilərinin təhlili aparılmış, 2022-ci ilin yanvar-iyun ayları üzrə təsərrüfat subyektlərində açılmış yeni iş yerləri haqqında məlumat əldə edilmişdir. Ev təsərrüfatları, müəssisə və təşkilatlar tərəfindən cari ilin ötən dövründə yeni salınmış meyvə bağlarının uçotu aparılmışdır.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında” 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən 2019-cu ilin oktyabr ayında keçirilmiş əhalinin növbəti siyahıyaalınmasından əldə olunmuş yekun məlumatları özündə əks etdirən üç cilddən ibarət toplunun ilkin variantı hazırlanmış və hazırda kütləvi nəşri istiqamətində işlər davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda Naxçıvan Muxtar Respublikası üzrə nəzərdə tutulmuş tədbirlərin icra vəziyyətinə dair məlumatlar və müvafiq Dövlət proqramının əhatə etdiyi dövr üzrə bəzi göstəricilər rüblük dövrdə hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Ötən dövr ərzində şəhər və rayon statistika idarələri ilə birlikdə, ümumilikdə, 10914 statistik vahiddən 37739 sayda hesabat yığılmışdır. Hesabatlar komitə aparatının aidiyyəti şöbələri tərəfindən ümumiləşdirilərək analiz edilmiş, muxtar respublika üzrə iqtisadi, sosial, demoqrafik və ekoloji sahələrin vəziyyətinə dair göstəricilər əldə olunmuşdur.

2022-ci ilin 6 ayında statistik vahidlərin Dövlət reyestrində qeydiyyatda olan 2043 statistik vahidin göstəricilərinin aktuallaşdırılması nəzərdə tutulmuş vaxtda başa çatdırılmışdır. Bu dövr ərzində hesabat intizamına cəlb olunmayan hüquqi şəxs qalmamışdır. Cari ilin ötən dövründə sosial-iqtisadi inkişafa dair aylıq məruzələr hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə, Nazirlər Kabinetinə və digər aidiyyəti orqanlara təqdim olunmuşdur.

Komitə sədri Vaqif Rəsulov kollegiya iclasına yekun vuraraq bildirib ki, Dövlət Statistika Komitəsi aparatının, şəhər və rayon statistika idarələrinin əməkdaşları altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasından irəli gələn vəzifələri icra üçün rəhbərliyə alacaqlar.

Sonra məruzə ətrafında çıxışlar olub

* * *



Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində bununla bağlı keçirilən kollegiya iclasını cəmiyyətin sədri Yəhya Allahverdiyev açaraq bildirib ki, görülən tədbirlər nəticəsində 2022-ci ilin birinci yarısında muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlarına 146 milyon kubmetr su ehtiyatı toplanıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 112,3 milyon kubmetr suvarma suyu verilib, bunun müqabilində təkrar suvarma ilə 93982 hektar torpaq sahəsi su ilə təmin olunub.

Qeyd edilib ki, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə 2022-ci ilin birinci yarısında Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, müxtəlif diametrli borularla 18,9 kilometr xətt çəkilib, 187 ədəd paylayıcı hovuz quraşdırılıb. Bu işlərin davamı olaraq Babək rayonunun Güznüt, Çeşməbasar kəndləri ərazisində 240 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb. Torpaqların su təminatını yaxşılaşdırmaq üçün 2022-ci ilin birinci yarısı ərzində Kəngərli rayonunda 2200 hektar torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün Araz çayından qidalanan yeni nasos stansiyası və təzyiqli boru xəttinin tikintisi başa çatdırılıb. Həmçinin Kəngərli rayonunda 3200 hektar torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün yeni nasos stansiyası və təzyiqli boru xəttinin tikintisinə başlanılıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikada əhalinin içməli su təminatını və kommunal şəraitini yaxşılaşdırmaq üçün 3 kilometr yeni içməli su xətti çəkilib, müxtəlif diametrli 11,9 kilometr mövcud xətlərdə təmir-bərpa işləri yerinə yetirilib, 1927 metr kaptaj təmir olunub, 378 metr yeni kaptaj tikilib, 1237 metr kanalizasiya xətti çəkilib, 1180 metr kanalizasiya xətti təmir olunub.

Vurğulanıb ki, 2022-ci ilin yanvar-iyun ayları ərzində 7 kəhrizdə təmir-bərpa işləri başa çatdırılıb, 5 kəhrizdə təmir-bərpa işləri davam etdirilib, quyularda 323 metr təmizləmə işi aparılıb, 189 metr çalagərdan hörgü işi yerinə yetirilib, 3305 metr kürə lildən təmizlənib, 360 metr saybənd hörülüb. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 31 ədədinə yeni nasos quraşdırılmaqla 395 ədədi təmir olunub. Bundan əlavə, “Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Kəngərli rayonunun Qarabağlar kəndində 2 ədəd subartezian quyusunun tikintisi başa çatdırılıb, Culfa rayonunun Yaycı kəndində müxtəlif diametrli borularla 28,56 kilometr içməli su xətti çəkilib, 183 evin su xəttinə birləşmə aparılıb, 1151 su sayğacı və 6 ədəd yanğın hidrantı quraşdırılıb. Sədərək rayonunda isə içməli su və kanalizasiya şəbəkəsinin tikintisi uzun müddət fasilədən sonra cəmiyyətin Su Təmir-Tikinti İdarəsi tərəfindən davam etdirilir.

Sonra çıxışlar dinlənilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

*Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Hicran Rüstəmov açaraq bildirib ki, 2022-ci ilin birinci yarısında muxtar respublikada Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 67 milyon 539 min manat həcmində inşaat işləri yerinə yetirilib ki, bunun da 55 milyon 942 min manatını və ya 82,8 faizini tikinti-quraşdırma işləri təşkil edib.*

Qeyd olunub ki, hesabat dövründə Şərur rayon Çərçiboğan kəndində 540 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması, uşaq musiqi məktəbi binasının tikintisi başa çatdırılıb, Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması, Naxçıvan şəhərində Kimya Biologiya Təmayüllü Lisey binasının tikintisi, 210 yerlik uşaq bağçası binasının tikintisi, Alışar, Vərməziyar, Həmzəli kəndlərində tam orta məktəb binalarının yenidən qurulması, Babək şəhərində məktəbdənkənar təhsil müəssisələri üçün binanın, Nehrəm qəsəbəsində, Sirab kəndlərində tam orta məktəb binalarının tikintisi, Vayxır kəndində orta məktəb binasının yenidən qurulması, Pəzməri kəndində ümumi orta məktəb binasının, Xanağa, Kələki kəndlərində tam orta məktəb binalarının yenidən qurulması, Azadkənd kəndində 270 şagird yerlik tam orta məktəb binasının, Şahbuz şəhərində məktəbdənkənar təhsil müəssisələri üçün binanın tikintisi davam etdirilir. Həmçinin Şərur rayonunun Çərçiboğan kəndində həkim ambulatoriyası binasının tikintisi başa çatdırılıb, Axura kəndində, Babək rayonunun Vayxır kəndində həkim ambulatoriyası binasının tikintisi, Culfa rayon Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin tikintisi davam etdirilir.

Ötən dövrdə Şərur şəhərində Mədəniyyət Sarayının tikintisi başa çatdırılıb, Naxçıvan şəhərində Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası binasının, “Zəfər” Parkının tikintisi, Şərur şəhərində Mərkəzi və Uşaq Kitabxanası binasının yenidən qurulması, Kəngərli rayonunda Tarix-Diyarşünaslıq Muzeyi binasının tikintisi davam etdirilir. Babək rayonunun Cəhri qəsəbəsində məscidin tikintisi başa çatdırılıb, Naxçıvan şəhərində məscidin tikintisi, Ordubad şəhərində isə Cümə məscidinin yenidən qurulması davam etdirilir.

Diqqətə çatdırılıb ki, cari ilin birinci yarısında Şərur rayon Çərçiboğan kəndində xidmət mərkəzi binasının tikintisi başa çatdırılıb, Şərur rayonunun 2, Babək rayonunun 1, Ordubad rayonunun 5 kəndində xidmət mərkəzi binasının tikintisi davam etdirilir. Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin inzibati binasının, Şərur şəhərində icra nümayəndəliyi binasının, 1-ci Sərhəd Komendantlığı binasının, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Babək rayon şöbəsinin inzibati binasının yenidən qurulması, Çərçiboğan kəndində inzibati ərazi dairəsi üzrə nümayəndəlik binasının, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin Kəngərli Rayon İdarəsinin inzibati binasının tikintisi başa çatdırılıb, Naxçıvan şəhərində 4 mərtəbəli inzibati binanın, “ASAN xidmət” Mərkəzi binasının, Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin inzibati binasının, Naxçıvan Muxtar Respublikası STEAM Tədris Mərkəzi binasının, Oksigen İstehsalı Müəssisəsi binasının, İplik İstehsalı Müəssisəsi binasının, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeorologiya, Meşələrin inkişafı və meşə təsərrüfatı idarələri üçün inzibati binanın, “DOST” Mərkəzi binasının, Dəmiryol Nəqliyyatında Polis Şöbəsinin inzibati binasının tikintisi, Naxçıvan Dövlət Universitetinin Rektorluq binasının, Duzdağ Radio-Televiziya Ötürücü Stansiyasının inzibati və texniki binasının yenidən qurulması, Şərur şəhərində Sənaye Məhəlləsinin, Avtovağzal binasının tikintisi, Axura kəndində inzibati ərazi dairəsi üzrə nümayəndəlik binasının yenidən qurulması, Həmzəli kəndində, Babək rayonunun Vayxır, Ordubad rayonunun Unus, Kələki, Azadkənd, Xanağa kəndlərində inzibati ərazi dairəsi üzrə nümayəndəlik binasının, Pəzməri kəndində kənd mərkəzi binasının, Culfa rayonunda İcra Hakimiyyətinin inzibati binasının, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin Culfa Rayon İdarəsinin inzibati binasının, Şahbuz rayonunda Maliyyə Şöbəsinin və Statistika İdarəsinin inzibati binasının, “Naxçıvanterminalkompleks” Birliyi Sədərək Tır parkında yardımçı binanın tikintisi davam etdirilir. Həmçinin enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının, 15,6 meqavat gücündə Tivi Su Elektrik Stansiyasının, Culfa rayonunda 132/110/35 kilovat elektrik yarımstansiyasının tikintisi davam etdirilir.



Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov çıxışında bildirib ki, 2022-ci ilin birinci yarısında tikintisinə ötən il başlanılan Şərur rayon Çərçiboğan kənd avtomobil yolunda tikinti-quraşdırma işləri başa çatdırılaraq təhvil verilib, rayonun daxili avtomobil yollarında cari təmir, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx və Xanlıqlar-Şərur-Dəmirçi, həmçinin bu ildən tikinti işlərinə start verilən Şərur Rayon Sənaye Məhəlləsi, Həmzəli-Axura, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 5 saylı Sərhəd Zastavası və Alışar kənd avtomobil yollarının yenidən qurulması davam etdirilib. Bununla yanaşı, Babək rayonunun Sirab və Vayxır kəndlərində, Cəhri-Aşağı Buzqov, Uzunoba gölü ətrafında, Babək şəhərindəki Hüseyn Cavid küçəsində avtomobil yollarının yenidənqurulması və rayondaxili avtomobil yollarında cari təmir işləri həyata keçirilib. Həmçinin Culfa rayonunda Gömrük İdarəsi ətrafında asfalt-beton örtüyünün təmiri işləri, rayondaxili avtomobil yollarında isə cari təmir, Culfa-Ordubad magistral avtomobil yolunda çat təmiri işləri həyata keçirilib. Ordubad rayonunda isə rayondaxili avtomobil yollarında asfalt-beton örtük, Vənənd kəndində isə körpü təmir olunub, tikintisinə ötən il başlanılan Vənənd-Pəzməri avtomobil yolunda inşaat işləri davam etdirilib, Azadkənd avtomobil yolunun yenidən qurulmasına başlanılıb. Şahbuz rayonunda da rayondaxili avtomobil yollarında cari təmir, Şahbuz şəhərində “N” hərbi hissədə 44 mənzilli yaşayış binasının ətrafında asfalt-beton işləri davam etdirilib.

Sonra çıxışlar olub.

* * *

Naxçıvan Muxat Respublikası “Naxçıvanpoçt” publik hüquqi şəxsdə 2022-ci ilin birinci rübündə görülən işlər və qarşıda duran vəzifələr barəsində kollegiya iclası keçirilib. Tədbirdə çıxış edən “Naxçıvanpoçt” publik hüquqi şəxsin direktoru Səxavət Bağırov bildirib ki, 2022-ci ildə də poçt xidməti sahəsinə hərtərəfli dövlət qayğısı göstərilmişdir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 9 fevral 2022-ci il tarixli Qərarı ilə “Naxçıvanpoçt” publik hüquqi şəxsin yeni ştat cədvəli təsdiq olunmuş, əməkhaqları artırılmış, əməkdaşların maddi rifahlarının yaxşılaşdırılması təmin olunmuşdur.

Çıxışda 2022-ci ildə Naxçıvan Muxtar Respublikasında aparılan quruculuq işlərindən “Naxçıvanpoçt” publik hüquqi şəxsin də öz töhfəsini almasından bəhs olunub. Bildirilib ki, 2022-ci ilin ilk altı ayı ərzində əhalidən istehlak edilmiş elektrik enerjisinə görə 4 milyon 178 min 808 manat və ya ötən illə müqayisədə 32 faiz çox, istehlak edilmiş təbii qaza görə 8 milyon 744 min 544 manat və ya ötən illə müqayisədə 27 faiz çox, istehlak edilmiş suya görə 1 milyon 326 min 373 manat və ya ötən illə müqayisədə 11 faiz çox, internet istifadəçilərindən isə 1 milyon 131 min 754 manat və ya ötən illə müqayisədə 8 faiz çox, bələdiyyə ödənişlərindən 151 min 913 manat və ya ötən illə müqayisədə 108 faiz çox, məişət tullantısının yığılmasına görə əhalidən 90 min 549 manat və ya ötən illə müqayisədə 14 faiz çox, üzvlük haqlarından 538 min 382 manat və ya ötən illə müqayisədə 22 faiz çox vəsait yığılmışdır. 2022-ci il ərzində 4 milyon 531 min 239 manat pul baratı qəbul olunmuş, 3 milyon 753 min 492 manat pul baratı ödənmişdir. İlin altı ayı ərzində “Naxçıvanpoçt” publik hüquqi şəxs tərəfindən 47 min 181 manat dəyərində bağlama qəbul edilmişdir ki, bu da ötən illə müqayisədə 56 faiz çoxdur. Hesabat dövründə 15 min 245 manat dəyərində məktub qəbul olunmuşdur ki, bu da ötən illə müqayisədə 12 faiz çoxdur. “Naxçıvanpoçt” publik hüquqi şəxsin Xüsusi rabitə bölməsi üzrə bu ilin 6 ayı ərzində 9 min 618 manat dəyərində xidmət göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz artım deməkdir. Sözügedən dövr ərzində muxtar respublika üzrə 1 milyon 372 min 388 manat və ya ötən illə müqayisədə 34 faiz çox olmaqla pensiya ödənişi aparılmışdır. Xidmətin səviyyəsinin artırılması əhali arasında xidmətə inamı artırmış və nəticədə, 104 nəfər pensiyaçı öz pensiyalarını poçt bölmələri vasitəsilə almaq üçün müraciət etmişdir.



Səxavət Bağırov bildirib ki, “Naxçıvanpoçt” publik hüquqi şəxsin göstərdiyi xidmətlər üzrə hər bir filial, şöbə və bölmələr mütəmadi təhlillər aparmalı, xidmətin səviyyəsinin yüksəldilməsi və gəlirlərin artırılması istiqamətində təkliflərə müraciət etməlidirlər.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsi qarşıya qoyulan mühüm vəzifələrdəndir

*Məlum olduğu kimi, torpaq ehtiyatları hər bir ölkənin davamlı inkişafının əsas şərtlərindən biridir. Muxtar respublikamızın sosial-iqtisadi inkişaf strategiyasında aqrar sahə həmişə önəmli yer tutmuşdur. Torpaq münasibətlərinin tənzimlənməsi, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi üçün şərait yaradılması, torpağın münbitliyinin bərpası və artırılması istiqamətində, bütövlükdə, ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da bir sıra tədbirlər həyata keçirilmiş və belə tədbirlər bu gün də davam etdirilməkdədir.*



Aqrar sahənin inkişafına dair son illərdə qəbul olunmuş Dövlət proqramlarında, normativ-hüquqi aktlarda torpaqların münbitliyinin qorunması, bərpası və mühafizəsi sahəsində icrası zəruri olan bir çox vacib tədbirlər nəzərdə tutulmuş və hazırda uğurla icra olunmaqdadır. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun bir çox müddəaları kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə ilə bağlıdır. Kənd təsərrüfatı ehtiyacları üçün verilmiş və ya bu məqsədlər üçün nəzərdə tutulan torpaqlar kənd təsərrüfatı torpaqları sayılır. Kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadə qaydaları və şərtləri torpaq və aqrar qanunvericiliyi ilə tənzimlənir. Bələdiyyə mülkiyyətində olan torpaqlar Torpaq Məcəlləsi ilə və müvafiq normativ-hüquqi aktlarla istifadəyə və icarəyə verilə bilər. Torpaq üzərində bələdiyyə mülkiyyəti bələdiyyə mülkiyyətinə ayrılan torpaqlar hesabına yaranmışdır. Ərzaq təhlükəsizliyinin təmin olunmasında bələdiyyə torpaqlarının da mühüm rolu vardır. Həmin torpaqlardan təyinatı üzrə və səmərəli istifadə olunmalıdır. Ərzaq təhlükəsizliyinin təmin olunması baxımından bələdiyyə torpaqlarından yerli əhalinin ümumi mənafeyi üçün daha səmərəli istifadə edilməsi qarşıya qoyulan mühüm vəzifələrdəndir.

2022-ci il iyulun 7-də "Araz" Elm-İstehsalat Birliyinin təcrübə təsərrüfatında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov aidiyyəti üzrə tapşırıqlar verərək demişdir: ***"Ulu öndərin tövsiyələrinə uyğun olaraq muxtar respublikada strateji ərzaq məhsulu olan taxılçılığın inkişafı bundan sonra da aid qurumlar tərəfindən diqqətdə saxlanılmalı, məhsuldarlıq artırılmalıdır".*** Muxtar respublikanın ərazisində fəaliyyət göstərən bələdiyyələrin ərazilərində həm suvarılan, həm də dəmyə əkinin aparılması üçün torpaq sahələri vardır. Dəmyə əkininin də böyük iqtisadi əhəmiyyəti vardır və yerli özünüidarəetmə orqanları bələdiyyə mülkiyyətinə aid torpaqlarda dəmyə əkininin aparılmasına daha çox diqqət ayırmalı, aidiyyəti qurumlarla əməkdaşlıq əlaqələri gücləndirilməlidir.

Qanunvericilikdə bələdiyyə torpaqlarının mühafizəsi, o cümlədən onların təyinatına uyğun və səmərəli istifadəsinə nəzarət etmək bələdiyyələrin əsas vəzifələrindən biri kimi müəyyən edilmişdir. Bu məsələlər Torpaq Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Torpaqların münbitliyi haqqında" qanunlarda və digər normativ-hüquqi aktlarda öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 73-cü maddəsinə görə torpaqdan məqsədli təyinatına görə istifadə edilməməsi, kənd təsərrüfatı istehsalı üçün verilmiş torpaq sahəsindən ardıcıl 2 il ərzində və qeyri-kənd təsərrüfatı ehtiyacları üçün verilmiş torpaq sahəsindən 1 il ərzində üzrlü səbəb olmadan istifadə edilməməsi, eləcə də istifadə zamanı torpağın keyfiyyətinin pisləşməsinə və eroziyasına yol verilməsi torpaq sahəsi və ya onun bir hissəsi üzərində icarə hüququna xitam verilməsinin əsaslarından biridir. İcarəyə verilmiş torpaqların başqa məqsədlər üçün istifadəsinə yalnız təyinatının dəyişdirilməsindən sonra yol verilə bilər.

Bələdiyyə mülkiyyətində olan torpaqlardan istifadəyə və onların mühafizəsinə nəzarəti bələdiyyələr həyata keçirirlər. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinin tələblərinə əsasən torpaqlardan səmərəli istifadə olunmasına və onların mühafizəsinə bələdiyyə nəzarətinin vəzifələri istifadəyə və icarəyə verilmiş bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsi və mühafizəsi sahəsində torpaq qanunvericiliyinin tələblərinə əməl olunmasını təmin etməkdir. Bələdiyyə torpaqlarına vurulan zərərin və kənd təsərrüfatı itkilərinin ödənilməsi, habelə torpaq qanunvericiliyinin pozulması barədə müvafiq məhkəmələrə müraciət edilməsi və iddialar qaldırılması, torpaqların münbitliyinin yaxşılaşdırılması və digər məsələlərin həll edilməsi bələdiyyələr tərəfindən həyata keçirilir.

Torpaqların mühafizəsinin təşkilinin başlıca istiqamətlərindən biri də torpaqların münbitliyinin təmin edilməsidir. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən torpaqların münbitliyinin təmin olunması sahəsində bələdiyyələrin üzərinə mühüm vəzifələr qoyulmuşdur. Belə ki, bələdiyyələrin bələdiyyə mülkiyyətinə aid edilmiş torpaqların münbitliyinin təmin olunması sahəsində qanunvericiliyə uyğun müvafiq qərarlar qəbul etmək, öz əraziləri daxilində torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən torpaq sahələrində ətraf mühitə və başqalarının torpaqlarına zərərli təsir göstərə bilən tədbirlərin məhdudlaşdırılmasını və dayandırılmasını tələb etmək, bələdiyyə torpaqlarının səmərəli istifadəsinə və münbitliyinin mühafizəsinə nəzarət etmək və sair səlahiyyətləri var.

Qanunvericilikdə torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə bağlı hüquqi və fiziki şəxslər, habelə vəzifəli şəxslər üçün məsuliyyət tədbirləri də nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə görə fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər altı yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində, kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə isə fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

Həmçinin qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma hallarına görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də məsuliyyət müəyyən edilmişdir.

Məlumdur ki, kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə olunması ərzaq bolluğunun yaranmasına müsbət təsir göstərən mühüm amillərdəndir. Bu məqsədlə bundan sonra da icarəyə verilmiş bələdiyyə torpaqlarından məqsədli təyinatına uyğun daha səmərəli istifadə edilməli, torpaq sahələrinin zəbt olunması, özbaşına məqsədli təyinatın dəyişdirilməsi, münbit qatının korlanması, habelə bu sahədə baş verən digər qanun pozuntularının qarşısının alınması üçün qanunvericiliklə müəyyən edilmiş tədbirlər görülməlidir.

**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi, kiçik ədliyyə müşaviri***







*Turizm*

# Qeyri-ənənəvi turizm növlərinin inkişafı istiqamətində təbliğat işləri davam etdirilir

Quş müşahidəçiliyi quşları təbii mühitdə izləmək, hərəkətlərini araşdırmaq, onların növlərinin müəyyən edilməsində və sayılmasında mühüm əhəmiyyətə malikdir. Quş müşahidəçiliyi turizmin az sərmayə tələb edən, lakin böyük gəlir gətirən növlərindən biridir. Naxçıvan Muxtar Respublikasının əlverişli coğrafi mövqeyi, özünəməxsus iqlimi bu torpağa zəngin təbii gözəlliklər bəxş etmişdir və ərazinin təbiəti Azərbaycanın digər bölgələrindən nəzərəçarpacaq dərəcədə fərqlənir. Muxtar respublika ərazisində müşahidə olunan nadir quş növləri böyük maraq doğurur və bu quşlardan bəzilərinə Azərbaycanın digər bölgələrində, ümumiyyətlə, rast gəlinmir. Naxçıvan Muxtar Respublikasının ornito faunasının taksonomik tərkibi 18 dəstə, 54 ailə və 161 nəslə aid 259 növlə təmsil olunur ki, onlardan 64 növü Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmişdir. Bu amil isə, öz növbəsində, muxtar respublikada quş müşahidəçiliyi turizminin inkişafına böyük stimul yaradır.

Xarici quş müşahidəçiləri üçün maraqlı olan nadir quş növlərindən muxtar respublika ərazisində, əsasən, yaz və yay aylarında müşahidə olunan monqol hörücüsünü yarımquraq və dağlıq ərazilərdə, bozboyun vələmirquşunu dağətəyi ərazilərdə, qızılquyruq çaxraqçılı yarımsəhra iqliminin hökm sürdüyü ərazilərdə, ağboğaz bülbülü Naxçıvanda quru ərazilərdə, aladöş çərənçini Batabat gölü ətrafında, həmçinin may və iyun aylarında isə qısabarmaq sərçəni Naxçıvanın dağ yamaclarında və yarımsəhra ərazilərində izləmək mümkündür.



Quş müşahidəçiliyi üçün əlverişli ərazilərdə turizm infrastrukturunun müasir standartlar səviyyəsində qurulması müşahidəçilərin həmin yerlərə daha rahat çatmasına şərait yaradır. Batabat istiqamətində Ağbulaq İstirahət Mərkəzinin mövcudluğu quş müşahidəçilik turizm məhsulunun müşahidəçiləri üçün əlçatanlığını və cazibədarlığını daha da artırır. Bu məqsədlə səyahət edən turistlər vaxt və digər xərclərə qənaət etməklə istirahət mərkəzində gecələmə və qidalanma xidmətlərindən istifadə edə bilərlər. Eyni zamanda əlverişli müşahidə dövründə burada komfort iqlim şəraitinin mövcudluğu, turizm məhsulunun keyfiyyətinə əlavə dəyər qatmış olur.




Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən quş müşahidəçiliyi turizm növünün təbliği və inkişafı istiqamətində sistemli iş aparılmışdır. Naxçıvan Muxtar Respublikasındakı endemik quş növləri araşdırılmış və nəticədə, yeni turizm məhsulu formalaşdırılmışdır.

29 yanvar 2020-ci il tarixdə Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə "Azərbaycanda Quş Gözləmçiliyi turizmi" mövzusunda onlayn təlim keçirilmişdir. Azərbaycanın bütün bölgələrinin təmsil olunduğu tədbirdə Naxçıvan Muxtar Respublikasının turizm sektoru nümayəndələrinin də iştirakı təmin edilmişdir. Bundan başqa, ötən dövrdə Naxçıvanda quş müşahidəçiliyi ilə əlaqədar məlumatlar və fotolar məşhur *http://www.birdingplaces.eu/* saytına yerləşdirilmişdir. Naxçıvan, Culfa, Hacadağ, Araz çayı və Batabat istiqamətlərində məskunlaşan quşların yer aldığı ərazilər xəritə üzərində qeyd edilmiş və müşahidəçilər üçün ətraflı məlumat verilmişdir. Bu saytda nadir quşların çoxluq təşkil etdiyi ərazilər əhəmiyyətlilik dərəcəsinə görə A, B, C kateqoriyalarına ayrılmışdır. Azərbaycan üzrə 16 məntəqənin 5-i Naxçıvan Muxtar Respublikası ərazisində yerləşmişdir ki, bunlardan da Azərbaycanda mövcud olan 13 A kateqoriyalı məntəqədən 3-ü, B kateqoriyalı 3 məntəqədən isə 2-si muxtar respublikanın ərazisində yerləşir. Onu da vurğulayaq ki, adıçəkilən saytda yerləşdirilmiş xəritədə qırmızı rənglə qeyd olunan A kateqoriyası əhəmiyyətlilik dərəcəsinə görə ən yüksək kateqoriyadır ki, müşahidəçilərə həmin ərazini qaçırmamaq və mütləq şəkildə baş çəkmək tövsiyə olunur.

Muxtar respublikada quş müşahidəçiliyi turizminin kommersiya aspektləri, marketinqi və rəqabətədavamlılığı, bu istiqamətdə görülən işlər, müvafiq kateqoriyadan olan turistlərin maraqlarının nəzərə alınaraq inkişaf etdirilməsi üçün təbliğat istiqamətində işlər davamlı hal almışdır.

Bununla əlaqədar olaraq 15-17 iyul 2022-ci il tarixlərdə Böyük Britaniyanın Rutland vilayətində keçirilən Qlobal Quş Müşahidəçiliyi (Global Bird Fair) turizm sərgisində Naxçıvanın ornitoloji turizm potensialı nümayiş etdirilmişdir. Dünyanın 60-dan çox ölkəsinin 250-yə yaxın turizm şirkəti və təşkilatının qatıldığı sərgidə vahid Azərbaycan stendi altında "Naxçıvan Muxtar Respublikası" stendi təşkil edilərək muxtar respublikanın bu sahədə turizm potensialı təbliğ olunmuşdur. Sərginin məqsədi muxtar respublikamızın turizm potensialını, burada olan nadir quş növlərini sərgi iştirakçılarına tanıtmaq və quş müşahidəçiliyi turizmi üçün əlverişli yerləri təbliğ edərək diyarımıza turist cəlb etməkdən ibarətdir.

*Qeyd edək ki, quş gözləmçiliyi turizm məhsulu muxtar respublikada fəaliyyət göstərən turoperatorlar tərəfindən beynəlxalq bazarlara çıxarılır. Ötən dövrdə yerli turoperator tərəfindən bir qrup xarici turistin quş müşahidəçiliyi məqsədilə muxtar respublikaya turu təşkil edilmişdir.*

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## *İtmişdir*

Şərur rayonu, Yuxarı Aralıq kənd sakini Məmmədrzayev Hüseyn Həsən oğlunun adına olan JN-422$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*
**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 665